# "Əl Cəzirə" "Bakı"nı dünyaya tanıdacaq

Dünən dünyanın məşhur "Əl Cəzirə" telekanalının əməkdaşları ölkəmizə gəlib. Belə ki, Qətərə məxsus televiziya "Bakı" haqda reportaj hazırlayacaq. Onların görəcəyi işlər haqda "zolaqlılar"ın Media və Marketinq Departamentinin rəhbəri Nəriman Mehdiyevdən məlumat aldıq: *"Əl Cəzirə" bir müddət əvvəl bizə müraciət edərək, klub haqda reportaj hazırlamaq niyyətini bildirdi. Təbii, bu "Bakı"nın Azərbaycanda və ölkə xaricində gördüyü işlərlə bağlıdı. Belədə telekanal görülən işləri geniş işıqlandırmaq istəyir. Biz təsdiq cavabını verdikdən sonra onlar Bakıya gəldi. Səfər "Əl Cəzirə"nin öz hesabına maliyyələşib. Sadəcə, burda yerləşmələri üçün biz onlara şərait yaratmışıq. Artıq bu gün (dünən) onlar klubun təlim-məşq bazasında müəyyən çəkilişlər apardı. Telekanal əməkdaşları daha iki gün ölkəmizdə olacaq. Klub haqda "Əl Cəzirə"yə "Bakı"nın təşkilatçı-meneceri Vüqar Hüseynzadə məlumat verəcək. Hələ ki biz bunu planlaşdırmışıq. Əlavə hər hansı futbolçu və ya klub rəsmisini danışdırmaq lazım olsa, şərait yaradacağıq. Ölkəmizə 3 nəfərlə gələn heyətə jurnalist Riçard Para rəhbərlik edir. Onlar sabah ölkə kubokunun 1/4 finalında "İnter"lə cavab görüşümüzü də izləyəcək. Bu isə süjetə ölkə futboluna aid kadrların da əlavə olunması deməkdi".*

**VÜSAL HACISOY**

# Yığma Dubaya yollanacaq

Ölkəmizin çimərlik futbolu yığması martın 22-31-i aralığında Dubayda təlim-məşq toplanışında olacaq. Hazırlıq çərçivəsində bir neçə yoldaşlıq oyununun keçirilməsi də nəzərdə tutulub.

Toplanışda iştirak edəcək futbolçuların siyahısı belədi: *Zeynal Zeynalov, Ramin Quliyev, Emin Kürdov, Orxan Məmmədov, Nahid Mehrəliyev, Cəmərd Baxşəliyev, Asif Zeynalov, Elçin Qasımov, Vaqif Şirinbəyov, Rəhman Musayev, Ramil Əliyev, Amid Nazarov, Zaur Fərziyev, Fəyar Hüseynov.*

# "Turan"ın yeni icraçı direktoru tələbədi

## *Tovuzluların illik büdcəsi 450 min dollardı*

Tovuz şəhər stadionuun təmirə bağlanması zündən Bakıya köçən Turan"da yeni icraçı diktor təyin olunub. Bizə atan bilgiyə görə, Qasım rəbli bundan sonra qərb ubunda sözügedən vəzini icra edəcək. Qeyd lək ki, Rasim Əliyev senabrda bu vəzifədən ayrılış və indiyə kimi həmin ost boş qalmışdı. Ərəblin təyinatı ilə bağlı yaran sualları aydınlaşdıraq üçün klubun vitse-prezidenti Namiq Məstanovla aqə saxladıq: *"Bəli, bu yinat reallaşıb. Komanda zırda Bakıdadı və mən kbaşına bütün işlərin öhsindən gələ bilmərəm. na görə də Ərəblini bu sta gətirməyi lazım bil. Əslən qazaxlıdı, İqtid Universitetinin 4-cü rsunda oxuyur. Düzdü, bolla bağlılığı yoxdu, lakin bu idman növü ilə yaxından maraqlanır. Təbii, daha öncədən tanış idik. Düşünürəm ki, bizə lazımi köməyi göstərəcək".*

Bu arada "Turan"ın "Biznes Plaza" otelində məskunlaşdığını da xatırladaq. Komandanın yığmanın toplanışı ilə bağlı yaranacaq fasilədəki planları isə hələ müəyyənləşməyib. Çox güman, 2-3 günlük istirahətdən sonra komanda bir araya gələcək. Yeri gəlmişkən, "Turan"ın illik büdcəsi də məlumdu. Bizimlə söhbətdə Məstanov bunun 450 min dollar olduğunu, bura komandanın səfər, məskunlaşmaq, futbolçu, eləcə də texniki heyətin maaşı və başqa məsələlərin aid edildiyini bildirdi. Sonda Tovuz şəhər stadionunda təmir işlərinin davam etdiyini də vurğulayaq.

**FARİZ**

# Mehmet Binnət süni örtükdən narazılıq etdi

## *Kamran isə buts daşıdığı günləri yada saldı*




*Artıq bir neçə ildi "Bakı" ilə əməkdaşlıq edən Türkiyənin tanınmış "Acıbadem" klinikası bir müddət öncə "Qəbələ" ilə tərəfdaşlıq müqaviləsi imzaladı. Həmin xəstəxananın Bakıdakı ofisi də fəaliyyət göstərməkdədi. Nizami küçəsində, konkret "Xaqani" ticarət mərkəzinin 4-cü mərtəbəsində yerləşən 3 otaqdan ibarət ofisdə xəstələr qəbul olunur, onların dərdi dinlənilir, lazım gələndə müayinə və müalicə olunmaq üçün Türkiyəyə yola salınır. İşin özəlliyi ondadı ki, azərbaycanlı futbolçulara yaxşı tanış olan Mehmet Binnət fəaliyyətini artıq "Acıbadem" klinikasında davam etdirir.*

Dünən saat 10.30-da 5-6 idman jurnalistinin xəstəxananın Bakıdakı ofisində toplaşmasında məqsəd həm tanınmış həkimin bizlərin suallarını cavablandırması, həm də "Acıbadem"in "Bakı" və "Qəbələ" ilə əməkdaşlıq etdiyini futbol ictimaiyyətinə növbəti dəfə xatırlatmaq idi. Görüşdə bölgə təmsilçisini baş məş məşqçi Ramiz Məmmədovla zədəli Viktor Mendi təmsil edirdisə, "Bakı"dan təşkilatçı-menecer Vüqar Hüseynzadə ilə yanaşı, futbolçular - Kamran Ağayev, Elvin Məmmədov və Rauf Əliyev masa arxasında əyləşmişdi. "Zolaqlılar"ın gecikməsi üzündən yarım saat gec başlayan görüşdə maraqlı məqamlar yox deyildi. Məsələn, Elvin Məmmədovun "Qəbələ"də köməkçi-məşqçi kimi çalışan Kənan Kərimovla söhbətdə sentyabrdan sonra subaylığın daşını atmaq fikrində olduğunu dilə gətirməsi diqqəti çəkdi. Kamran Ağayev isə yenə öz ampluasında idi. Şirin zarafatlarından qalmayan qapıçı əlini Ramiz Məmmədovun köməkçilərinin - Kənan Kərimovla Sənan Qurbanovun çiyninə qoyub bəndənizə "futbol oynamağı bunlardan öyrənmişəm. O vaxt yaşım az idi, məşqdən sonra Kənanla Sənanın butslarını götürüb dallarınca qaçırdım" deməsi Kərimovla Qurbanovu bir anlıq keçmişə qaytardı. Bir sözlə, birsaatlıq görüş gözlədiyimizdən də tez gəlib keçdi. Qol vurmaq bacarığını tərgidən Rauf Əliyev isə deyəsən, ağzını açmaq fikrindən də daşınıb. Kənara çəkilib başverənləri süzən hücumçu eşitdiyi hər maraqlı hadisəyə dodaq altından gülməklə reaksiya verirdi. Mendini isə sanki həyatında heç vaxt görmədiyi adamların arasında oturdub "sakit dur" əmri vermişdilər. Baxışlarından nədənsə qorxub-çəkindiyi hiss olunan afrikalı görüş başa çatana yaxın "özünə gəldi".

Tədbirə gəlincə, öncə söz səbəbkara verildi. Mehmet bəy iş fəaliyyəti ilə yanaşı, Ramiz Məmmədovla ilk tanışlığından danışdı: *"Yəqin bilirsiz ki, mən əslən azərbaycanlıyam. Anam Gəncədə, atam Şamaxıda anadan olub. Qohumlarımın əksəri Azərbaycanda yaşayır. Yalnız mən Türkiyədəyəm. Buna baxmayaraq, tez-tez gəlib onlarla maraqlanıram. Bəlkə də bunun nəticəsidi ki, azərbaycanlı idmançıların sağlamlığının qayğısına qalıram. Sizinlə daha əvvəl görüşlərim olub. Lakin budəfəki görüşün özəlliyi ondadı ki, bu dəfə sizlərin önündə "Acıbadem"in həkimi kimi oturmuşam. Ən böyük hadisə onların məni transfer etməsi oldu (gülür). Klinika rəhbərliyi Ankarada açılan yeni filialın ortopediya və travmatologiya şöbəsinə mənim başçılıq etməyimi istədi. Artıq 3 aydı fəaliyyətimi davam etdirirəm. Rəhbərimiz Çağrı bəy əslən azərbaycanlı olduğumu biləndə köməkçilərinə "bundan sonra Azərbaycanla işbirliyini daha da genişləndirin" tapşırığı verdi. "Bakı" ilə "Qəbələ"dən başqa, digər bir neçə klub rəsmiləriylə görüşümüz oldu. Bütün bunlar mənə o qədər maraqlı gəlir ki... Niyaməddin Paşayevin illər öncə dizi sınmışdı. Onu böyük çətinliklə əməliyyat etdik, əvvəlki vəziyyətinə qaytardıq. Ardından dünya çempionu oldu. İndi eşidirəm ki, Niyaməddin Taekvondo Federasiyasının vitse-prezidentidi. Mən onu görəndə balaca uşaq idi. Yanımda əyləşən Ramiz Məmmədovla illərdi dostluq edirik. Ailəvi gediş-gəlişimiz də öz yerində. O vaxt yanıma gələndə "Turan"ın futbolçusu idi, indi "Qəbələ"ni çalışdırır. Vaxtilə Ramizin ayağı sınanda böyük həyəcan keçirirdi. Dəqiqəbaşı "Mehmet həkim, düzələn zədədi" sualını verirdi. Əziyyət çəkib gəldiyinizə görə sizə minnətdarlığımı bildirmək istəyirəm".*

Daha sonra söz Ramiz Məmmədova verildi: *"Mehmet bəylə uzun illərdi tanışıq. Xatırlayırsızsa, "Turan"da çıxış edəndə ayağım sınmışdı. O vaxt futbola qayıdışım sual altında idi. Ancaq o məni futbola qaytardı. İllərdi ona minnətdarlığımı bildirirəm, bundan sonra da bildirəcəm. Onun fəaliyyətini "Acıbadem" klinikasında davam etdirməsi bizi sevindirir. Bu əməkdaşlığa görə fürsətdən istifadə edib xəstəxana rəhbərliyinə təşəkkürümü bildirirəm".*

"Bakı" rəsmisi Vüqar Hüseynzadə qısa danışdı: *"Mehmet abini tanımıram, inşallah, bundan sonra tanıyaram. Artıq neçə ildi ki, "Bakı" futbol klubu ilə "Acabadem" klinikası əməkdaşlıq edir. Bu bizim üçün böyük stimuldu".*

"Zolaqlılar"ın aparıcı üzvü Elvin Məmmədovun uzun illərdi davam edən tərəfdaşlıqdan xəbərsiz olması salona toplaşanların təəccübünə səbəb oldu: *"Açığı, "Acıbadem"lə əməkdaşlıq etdiyimizi mənə Vüqar bəy söylədi. Hələ ki bildiyim bu qədərdi. Bundan sonra məlumatlı olmağa çalışaram".*

Daha sonra Mehmet Binnət suallara cavab verdi.

**- Son illər Azərbaycanda süni örtüklü meydançaların sayı durmadan artmaqdadı. Bu amilin futbolçuların zədələnməsində rolu nə qədərdi və gələcək üçün tövsiyəniz nədən ibarətdi?**

- Süni örtük futbolçularda xroniki zədələr yaradır. Daha çox ayaq burxulmaları olur ki, bu da sonrakı vaxtlarda yenə davam edir. Ona görə də sintetik örtük bir qədər risklidi. Həmin örtük standardlara cavab verirsə və son modeldisə, yola vermək olar. Amma təbii örtüyün əvəzi yoxdu.

**- Süni örtüyü bir növ təbliğ edən futbol rəhbərlərinə sözünüz nədi?**

- Azərbaycanda qazon yetişdirmək çətindisə, bunu hardasa anlamaq mümkündü, bir söz deyə bilmərəm. Ancaq dediyim kimi, mən həmişə təbii örtüyün tərəfdarı olmuşam.

**- Bu günə kimi bir çox futbolçular sizə müraciət edib. Ən ağır əməliyyatınız hansı olub?**

- Ramiz Məmmədovun və Ramal Hüseynovun zədəsini sağaltmaq həqiqətən çətin idi. Ramalın əməliyyatı 7 saat davam etmişdi.

**- Bəs ən uğurlu əməliyyatınız?**

- *(fikirləşir)* Rəşad Sadıqov təxminən 6-7 il öncə yanımda olmuşdu. Dizindəki zədəni böyük zövqlə, həm də qısa zamanda əməliyyat etdim.

**- Olubmu ki, hansısa futbolçunun əməliyyat pulunu ödəməyə imkanı olmayıb və belədə ona güzəşt etmisiz?**

- Əlbəttə, olub. Həm də bir yox, bir neçə nəfərə. Ancaq adları yadımda deyil.

Bu an Ramiz Məmmədov söhbətə qoşulur: *"Mehmet bəyin əsl fədakarlığını "Atırau"da çalışanda gördüm. "Şaxtyor"la oyunda gənc futbolçumuz Andrey Murqin ağır zədə almışdı. Onu dərhal Mehmet bəyin yanına göndərdim. O isə müayinələrə görə bizdən, demək olar ki, pul istəmədi. Halbuki Almaniya və İsraildə klubdan böyük məbləğ istəmişdilər".*

**- Türkiyənin ulduz futbolçularından kimisə əməliyyat etmisiz?**

- Fatih Terimi desəm, bəs edər? *(ucadan gülür)* Məşqçi olduğu dönəmdə dizindən zədə almışdı. Hə, siyahını Rüştü ilə də genişləndirə bilərəm.

**- Futbolçuların hər dəfə Türkiyəyə yollanması həm vaxt, həm də pul itkisidi. Gələcəkdə Bakıda "Acıbadem"in hansısa filialının xidmət götərməsi mümkündü?**

- Bu haqda müzakirə aparılır.

**- Rəşad Sadıqovun zədəsinin xroniki olduğu deyilir. Düzgün məlumatdı?**

- Açığı, Rəşad mənim yanımda uzun illər öncə olmuşdu. O vaxt xroniki zədədən əziyyət çəkirdi. Ancaq son zədələrindən xəbərim yoxdu. Bəzən görüşürük, ancaq futboldan, ordan-burdan danışırıq.

**- Niyə azərbaycanlı futbolçular zədə alan kimi sizin yanınıza gəlir?**

- Bu problemi illər öncə biz də yaşayırdıq. Türk idmançılar Almaniyaya üz tuturdu. Ən kiçik zədəni belə orda müayinə etdirirdilər. Alman həkimlər idmançılarla olduqca kobud davranırdı, bizi aşağılayırdılar. Guya türk həkimlərin heç nədən xəbəri yoxdu, biz heç nə bilmirik. Biz durmadan üzərimizdə çalışdıq, savadımızı artırdıq. Daha sonra klinikalar tikildi, bizə güvənməyə başladılar. İndi Avropanın bir çox ölkələrindən "Acıbadem"ə gəlirlər. Köməkçim Tural Əhmədov azərbaycanlıdı. Savadlı həkimdi, onu yaxşı tanıdığımdan yanımda işə götürdüm. Onu tam "bişirdikdən" sonra Bakıya göndərəcəm.

**- Sizdə nə var ki, bizim həkimlərdə yoxdu?**

- Hər şey var, sadəcə, təcrübə çatmır. Bu işdə ağsaqqallıq vacib məqamdı. Ümid edirəm ki, yaxın 5-10 ildə idmançılar Azərbaycandan kənara çıxmayacaq.

**HƏBİB**